# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın "Od içindən keçən yol" poemasının ikinci hissəsi üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Şair Rafiq Musanın "Od içindən keçən yol" poeması göstərir ki, müəllif xalqın adətini zaman-zaman yaşarı ənənələrini çox yaxşı bilir. Hətta insanların təbiətlə təmasda, ilin ayrı-ayrı fəsillərində davranışları, iqlimlə bağlı münasibətləri nə qədər dəyişkən, fərqli olsa da bütün bunları R.Musa zaman-zaman dəqiq müşahidə edib və varlığına toplayıb. Bəzən deyirlər ki, istedad hər şeyi həll edir. Ancaq mən bu fikirlə razı deyiləm, çünki istedad təbii talantdır, çevik düşüncə ilə bağlıdır. Amma düşüncənin mənəvi zənginliyi, məlumat bolluğu, dili dərindən bilməsi olmasa, hər hansı bir müəllif çətin ki, öz istəyinə qovuşa bilər.

Rafiqin bəxti onda gətirib ki, o, həyatı sanki elm mənbəyi kimi öyrənib. Həyatı dərindən bilmək, ona poeziyada qol-qanad verir. Bu da şübhəsiz, onun əsərlərində geniş məzmun və mahiyyətin üzə çıxmasına, sözə çevrilməsinə səbəb olur.

Sosial şəbəkədə yayılmış video-verilişlərinin hər brində onun parlaq şair obrazının keçdiyi yolu görmək mümkündür. "Ömrüm, məni bağışla", yaxud "Həyatımın monoloqu" adlı verilişi həyəcansız izləmək mümkün deyil. Bu verilişin xüsusi zövqlə hazırlanması, təbiət təsvirləri ilə növbələnmə, müsiqi tərtibatı, gözəl qiraətlə ifadə... kimi məsələlərin xüsusi sənətkarlıqla işlənməsinə sözüm yoxdur. Əsas odur ki, müəllif öz qiraəti ilə ifadə elədiyi əsərində özünü tapa bilmiş olsun. Buna biz özünüifadə imkanları deyirik. Bəli, həqiqətən R.Musa ilhamlı yaradıcılığı ilə kifayət qədər güclü özünüifadə imkanlarına malikdir. Onun həyat iztirabları, ağrılı dünyası var. Bəzən təsvirlərində, poetik ifadələrində yumorlu düşüncələrə də meydan verir. Amma bütün məqamlarda onun iztirablarla dolu həyatının daxili tərəfi elə öz sözü, özünün poetik ifadə tərzi ilə üzə çıxır.

"Od içindən keçən yol" poemasında da onun şair obrazını kifayət qədər səmimi və duyğusallığında görə bilirik. Onsuz da Qarabağın hər yerində bayramdır. Şəhərlər, kəndlər sürətlə bərpa olunur. Hətta hələ bərpa olunmamış kəndlərin cavanları yığış'b doğma yerlərə səfərlər edir, bu yerlərdəki bulaqları abadlaşdırırlar.

Şair öz dostları ilə qonaq gedib Cəbrayıla. Hətta Cəbrayılın ecazkar təbiət mənzərələrini, gəzməli-görməli yerlərini, tarixi abidələrini necə acgözlüklə seyr edir və bütün bunları sözə gətirir. Həqiqətən həyatın bütün anları yazı ilə məna kəsb edir. R.Musa da poemasındakı səmimi təsvirləri ilə şair dostunun qonaqpərvərliyini, duyğusallığını məmnunluqla poetik məzmuna bələyir və səmimiyyətlə oxucularına çatdırır. Bəli, onlar Cəbrayıldadır, arzuladıqları, görmək istədikləri məkanın ağuşunda:

Hər kəsə açıqdı duyğusal könlü,
Dillərdə dastandı şairin adı.
Rəfdəki boş yerlər darıxır yaman,
Yeni kitabların sorağındadı.

Zamanın dərd yükü çiyinlərində,
Sevgisi, kədəri saçında dəndi.
Şairin tərifə ehtiyacı yox,
Yazdığı əsərlər göz önündədi.

Var olsun şairi öz varlığıyla,
Yerinə yetirib hər istəyimi.
Xələfli kənardan baxırmış mənə,
Deyəsən, duymuşdu deyəcəyimi.

Kitablar ömrünün karvan yüküdür,
Hələ görünməyir son dayanacaq.
-Yeni kitablarım çapdadır, qağa,
Bu günə, sabaha hazır olacaq.

Qonaqlı-qaralı evlərimiz çox,
Alqış bu ocağa, bu elə alqış!
Şair gözləyirdi gəlişimizi,
Süfrəni əvvəldən hazırlayıbmış.

Bu təqdim olunan parçada müəllifin bir neçə istiqamətdə müşahidəsini gördük. O, şair dostunun zəngin kitabxanasına nəzər yetirir və burada, əlbəttə, dostunun müəllifliyi ilə çap olunmuş əsərləri də diqqətdən kənarda qoymur. Amma yol gəlib yorğun düşmüş qonaq-qara üçün dilimizdə deyildiyi kimi, süfrə açmaq daha vacibdir. Rafiq detalları elə reallığı ilə təsvir edir ki, biz onun Cəbrayıla səyahət etmədiyinə inana bilmirik. Bəli, sənətkar üçün öyrəndiyi, sevdiyi diyarın təbiətini də, insanlarına da yazıya almaq, tərənnüm etmək heç də çətin deyil. İstər qonaqların, istərsə də ev sahibinin görüş anındakı səmimiyyəti, demək olar ki, hər şeyi həll edir. Qonaqlar süfrəyə əyləşəndə özlərini qonaq kimi yox, elə bu yerlərin doğma sakinləri kimi aparırlar. Əslində elə ədəbiyyat aləmi də məhz insanları birbirinə doğmalaşdırmaq missiyası daşıyır. R.Musanın ədəbi qəhrəmanları sanki elə bu məkanda bir yerdə doğulublar, bu yerlərin nəvazişi ilə birlikdə boy atıblar. Rafiq isə öz tərənnümündədir - sevgi ilə, duyğu ilə tərənnümündə:

Dostları yanında olsa da belə,
Elə bil, nədənsə narahat idi.
Xələfli bir daha xoş-beş eyləyib,
"Buyurun süfrəyə, əyləşin", - dedi.

Ağına-bozuna baxmadı heç kəs,
Çörəkdən qoparıb, bismillah dedik.
Yol bizi yamanca silkələmişdi,
Süfrədə olandan iştahla yedik.

Bəlkə, tələsməyin vaxtı yetişib,
Ortaya söz atdı "şofer" sirdaşım.
Sən demə, hər şeyi hazırlayıbmış,
Him-cimə bənd imiş şair qardaşım.

Hər kəsin sözünə diqqət yetirib,
Hər kəsi süzürdü bayaqdan bəri.
Heç kimin sözünü o, kəsməyərək,
Saf-çürük edirdi deyilənləri.

Süfrənin üstündə bolluq olsa da,
İşini bilənlər çoxdan az yedi.
Söhbətə yenidən şair qoşuldu:
Bir az da dincəlin, durarıq, dedi.

Əlbəttə, paytaxtdan uzaqlaşıb təbiətin qoynuna qonaq gedəsən, Qarabağın başı bəlalar çəkmiş diyarını ziyarət edəsən, ancaq oradan bir bulaq üstə getməyəsən. Kiçik Qafqazın qayalı dağlarından süzülüb gələn, can dərmanı olan suyunu elə o təbii bulaqların özündən içməyəsən... şübhəsiz bunu heç kim bağışlamaz. Ona görə də dostlar qərara gəlirlər ki, Xələflinin dağlarına da qalxsınlar, sərin bulaqların suyundan elə çeşmənin özündə içsinlər.

Burada bir məqama da bir daha diqqəti cəlb etmək istərdim. Müəllifin təsvirlərində Xələfli reallığını görmək imkanları... oxucunu cəlb edir. Bu da onunla bağlıdır ki, R.Musa dostunun yaradıcılığına yaxından bələddir. O, Ə.R.Xələflinin doğma kəndi Xələflini yaxşı öyrənib. Onun əsərlərindəki möhtəşəm Xələfli obrazını sevgi ilə varlığına köçürüb.

Tez-tez maraqlı məqamlara, təbiət təsvirlərinə rast gəlirik. Poetik obrazlar bəndlərin içindən işıq kimi parlayır, diqqəti cəlb edir, tez-tez Xələfli adı yada salınır. Hər bir Xələfli adının arxasınca sanki bir dağ, bir qaya obrazı Xələflini xarakterizə edir. Müəllif ustalıqla Xələfli kəndinin obrazı ilə şair Xələflinin obrazını bir-birinə qovuşdura bilir. Bu da əsərin bədiiliyini daha da gücləndirir.

Mətndəki xınalı qayaların çiçəkləməyi, uzaqdan görünən Xələfli dağının buludlarla təması, tarixə qovuşan Aşağı Xələflinin - Aşağı Xələflinin xatırlanması bəzən fərəhli, bəzən kədərli notlarla oxucunun yaddaşına hopur.

Maraqlı bir məqam var; o, Xələfli dağını göylərin sütunu kimi təqdim edir. Bildiyimə görə, Xələfli kəndi - bunu mən Xələflinin nəşr elədiyi kitablarından öyrənmişəm - iki dağın arasında yerləşir. Kiçik Qafqazın silsiləsinə aid olan Xələfli dağı ilə Gordu Baba dağının arasındakı sinədə - vadidə yerləşən bu kəndin necə ecazkar mənzərəsi olduğunu təsəvvür etmək heç də çətin deyil:

Yəqin ki, bir azdan qalxacıq dağa,
Qazanı qoyacıq ocaq daşına.
Biz həsrət qalmışdıq illərdən bəri
Ağac kölgəsinə, bulaq başına...

Uzaqdan görünür Xələfli dağı,
Seyrək buludlarla xətirlənibdi.
Çiçəkmi yağıbdı dərəyə, düzə?
Hər tərəf nə yaman ətirlənibdi.

Dağları görüncə qürurlanıram,
Dərədən səs gəlir, çayın səsidi.
Arabir dağlardan əsən küləklər
Dağların arana hədiyyəsidi.

Dərələr nə dərin, yamaclar gözəl,
Təbiət bu yerə qələm çəkibdi.
Çiçəklər qayanın bağrını yarıb,
Xınalı qayalar çiçəkləyibdi.

Quşlar nəğməsini axşama salıb,
Dincəlir budağın sərinliyində.
Tarixə qovuşub Xələfli kəndi,
Uyuyur suların dərinliyində.

Müəllifin təsvirlərində belə bir məntiq də diqqəti cəlb edir ki, ecazkar mənzərələrlə əhatə olunmuş məkanda doğulub böyüyən istedadlı bir şəxs şübhəsiz ki, öz xalqı tərəfindən sevilən sənətkar olmalıydı. Çünki o, bütün varlığı ilə yerini, yurdunu sevir, qəlbən, ruhən bu yerə, yurda, məkana bağlıdır. Özü daha yaxşı deyir ki, Ə.R.Xələflinin bəxtinə düşən bu yer elə cənnət-məkandır. Beləcə, gözəl təbiət təsvirlərinin fonunda biz Xələfli ilə birgə Xələflini qarış-qarış gəzirik. Xələflilərin qonaqpərvərliyi, doğmalığı, istiqanlığı sanki elə bu yerlərin təbiətindən qaynaqlanır. Müəllif də insan-təbiət doğmalığına bütün varlığı ilə inanır. Ona görə də oxucusunu da bu sevgiyə inandıra bilir:

Gordu bulağının səsini dinlə,
Nəğmələr yaşayır zümzüməsində.
Şirin xatirələr baş alıb gedir,
Ruhumuz dolaşır çeşmə səsində.

Cığırlar zirvəyə çəkib aparır,
Vallah, təzələnir bu yerdə yaddaş.
Al-əlvan geyinib bərələr-bəndlər,
Çiçəkli çəmənlər xalıdı, qardaş.

Bu yerdə sevgiyə dəyər verilib,
Yerlə-göy ilk dəfə burda görüşüb.
Tanrı dərgahından gələn gözəllik
Necə də bu yerin bəxtinə düşüb.

Göylərə baxıram, könül oxşayır,
Dağlardı bu yerdə göyün dayağı.
Burda göy üzünü enməyə qoymur,
Göylərə sütundu Xələfli dağı.

Burda söz yiyəsi sözünə bağlı,
Dağlardan ucadır hər kəsin andı.
Əli Rza Xələfli, bəxtinə düşüb,
Bu yurdun hər yeri cənnət-məkandı.

Müəllif hadisədən-hadisəyə, məkandan-məkana sürətli gedişlərlə keçə bilir. Xələflinin cənnətməkan olduğunu qeyd etdiyi məqamda birdən tarixə müraciət edir, bir qərinə əvvəlki hadisələri yada salır.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

Özü demiş, erməni faşizminin Qarabağı qan çanağına döndərdiyi dövrləri göz önünə gətirir. Qarabağda şəhərlər yerlə yeksan edilib, bütün mədəniyyət obyektləri, tarixi abidələr, şəxsi mülklər - hamısı talan edildi, dağıdıldı, qənimət kimi satıldı, daşınıb aparıldı. Elə ona görə də bizim baş verən hadisələri unutmaq haqqımız yoxdu. Çünki qan çanağına dönmüş zaman unudulmaz tariximizin ən qanlı səhifələridir. Müəllif də elə bunu nəzərdə tutaraq yazın:

Bir zaman bu yerlər "qan çanağıydı",
İndi yerindəmi əhvalın-halın?
Bəlkə qonaqlığı saxlayaq bir az,
Gəzək bu yerləri bir ayaqyalın.

Dağlar köklənibdi "Cəngi" səsinə,
Daşların mamırı toylar xınası.
Göylərə baxıram, sanki dənizdi,
Quşqonmaz zirvələr ruhun qidası.

sını eşidirik. Bu bulaqların nəğmələri heç kimi bezdirmir, heç kimi yormur, təkrar-təkrar, zaman-zaman bu bulaqların nəğmələrinə qoşulub özün də oxumaq istəyirsən. Bəli, bu, bir təbiət sevgisidir. Təbiət sevgisi olan şairin sevgi nəğmələridir:

Burda küləklərin havası özgə,
Güllərin ətrinə dağlar barınıb.
Qaya var, şimşəklər güc eyləməyib,
Çiçəklər qayanın bağrını yarıb.

Gah selə dönürəm, gah da ki yelə,
Duyğumun axarı aparır məni.
Ulu Xələflini sənmi tanıtdın,
Yoxsa Xələflimi tanıtdı səni?

Mircəlal dayanıb tonql başında,
Yenə də həvəslə iş başındadı.
Ətin tikələri şişə taxılıb,
Ocaqda bişən ət öz dadındadı.

Sözə meydan verib şair Xələfli,
Yenə xatırlandı gənclik çağımız.
Açdıq süfrəmizi göy otun üstə,
Süfrəni bəzədi "bazarlığımız".

onlar illər boyu bir qərinədən də çox yer-yurd həsrəti ilə alovlanıb, yanıb-yaxılıblar. Bəs bunların ağrı-acısını necə çıxmalıdırlar? Ona görə də şairin sevgi dolu tərənnümlərini biz də məmnunluqla oxuyur və özümüzü elə həmin insanların arasında görürük. O, şair dostunun vüsala çatmasından, yurduna qovuşmasından sonrakı əhvalını da məmnunluqla təsvir edir. Hiss edir ki, yurda sevgisi onun ən ali, ən üstün sevgisidir. Bu sevgiyə qovuşmağın gətirdiyi xoşbəxtliyi heç nə ilə müqayisə etmək olmaz:

Bu yerin sahmanı göz oxşamaqda,
Gur işıq yayılıb dərəyə-düzə.
Deyəsən, axşamdan xeyli keçibdi,
Ulduzlar səmadan boylanır bizə.

Bu yerlər gözəldi, gör necə xoşdu
Yerin də, göyün də abı-havası.
Bu axşam dünyanın xoşbəxti bizik,
Bir ömür yaşadıq xatırlanası.

Şairin üzündə sevgiyə bir bax,
Vətəndən özgə yer yalanmış, yalan.

# ODDAN KEÇMƏYİN YANĞISI

Könlümü oxşayır hər dərə, hər dağ,
Göylər bizimkidir, dərələr bizim.
Könlüm bu yerlərin həvəsindədir,
İzin ver, dağları doyunca gəzim.

Əl verib görüşüm sal qayalarla,
Baxıb varlığına doysun gözlərim.
Ağır sınaqlardan çıxan çöllərin
Dərdinə məlhəmdir ayaq izlərim.

Alsın könlümüzü bu dərə, bu dağ,
Sevgilər paylayaq şəhərə, kəndə.
Qoy sıxım sinəmə gülü-çiçəyi,
Bənövşə bir daha düşməsin bəndə.

Yuxarıda qeyd etdiyim kimi, R.Musa təbiət təsvirlərində daha çox lirikdir. Onun incə, zövqlə yazdığı təbiət lövhələri oxucu yaddaşında elə özünün təsvir etdiyi bənövşələr kimi çiçəkləyir. Ayrı-ayrı məqamlarda təbiətə sevgisini insanın həyata sevgisi kimi xarakterizə edir. Bu da oxucunun varlığına hakim kəsilməyin poetik vasitəsidir. Müəllif özü də məmnundur. Çünki bu yerlərin gözəlliyindən gözləri doymur. O, elə təbiətin özünə çevrilməyi özünün ən müqəddəs arzusu kimi dilinə gətirir:

Zirvədən boylanım dərəyə-düzə,
Qəlbimi boşaldım dağ yollarına.
Güllə yarasına dözən qayanın
Bir az sığal çəkim yaralarına.

Sıxım ürəyimə torpağı-daşı,
Gəzməyim bu eli-yurdu boşuna.
Hərdən xatırlayıb ansınlar məni,
Çevrilim bu yerdə Vətən daşına.

Təpələr nənəmin kündələridi,
Oğulsan, təpəni təpədən ayır.
Dağları oynadan dağ çayı yenə
Düzlərə enəndə meydan sulayır.

Burda bulaqların sayı yetərli,
Şirvanlı bulağı, Kor bulaq sərin.
Hər ağac kölgəsi bir xatirədi,
Məskəni olubdur sevilənlərin.

Sözünün kəsəri qılıncdan iti,
Hörmət yiyəsiydi aranda-dağda.
Saz tutub, söz deyib min bir həvəslə
Dirili Qurbani Dirili dağda.

Rafiq Musanın təsvir etdiyi bulaqların ecazkarlığı yazı ilə gözlərimizin mənzərəsinə çevrilir. Sanki biz Şirvan bulağının, Gur bulağın sularının şırıltı-

Ətirli dağların havası sərin,
Qayğısı çəkilmir, burda heç nəyin.
Ləzzəti özgədi, dadı özgədi,
Təbiət qoynunda yeyib-içməyim.

Xüsusilə, bir obraz mənim diqqətimi çəkdi. "Ozan" verilişində tez-tez xatırlanan Dirili Qurbani obrazı. Şair bu obrazı o qədər sevgi ilə tərənnüm edib ki, bir misranın, yaxud bir neçə misranın içində biz böyük el sənətkarına şairin sonsuz sevgisini duya bilirik, görə bilirik. Məni ən çox fərəhləndirən bir məqam da var. Bu da şairin sözə verdiyi meydandır. O, elə dostunun sorağı ilə Cəbrayıla ona görə qonaq gedib ki, dostunun da şeirlərini onun öz dilindən elə ecazkar Cəbrayıl yurdunun gözəl mənzərələrinin fonunda dinləsin. Dəfələrlə demişəm ki, R.Musa reallığı kifayət qədər müşahidə edən və yazıya gətirə bilən sənətkardır. Bulaq başındakı məclisin maraqlı cizgilərini çox reallıqla təsvir edir. Pul-pul olan köz, qızaran manqal ətri ilə, dadı ilə hər kəsi çağıran kabab... Bütün bunlar bir halallıq süfrəsinin təsvirləridir:

Budur, pul-pul olub kömürün közü,
Tüstüsü dağların başından uca.
Kəməri bir az da boşaltmaq gərək,
Yeyib-içməliyik bu gün doyunca.

Sən deyən elə də vaxt itirmədik,
Köz üstə bişənlər süfrəyə gəldi.
Yenə yada düşdü olub-keçənlər,
Tələbə həyatı önə çəkildi.

O şirin illəri xatırlasaq da,
Qayıtmaq mümkünmü itən günlərə?
Ayları illərə calasaq belə,
Gedib çatmaq ölmur ötən günlərə.

Var olsun şairin odu-ocağı,
Bugünkü dincliyi şair yaratdı.
Bu yerdə yaşayıb, yazmağa nə var,
Bu axşam ömrümüz bir gün də artdı.

Dünənə həsrətlə boylandıqca biz,
Unutmaq istədik hər dərdi-səri.
Bu gün yaşamağa, yanmağa dəyər
Gənclikdən bu günə qalan günləri.

Şair bir məsələni də xüsusi məmnunluqla əsərinə gətirir. Dağlar qoynunda, bulaq başında, bəlkə də, həyatlarının ən bəxtəvər çağlarını yaşayan bu insanların çox şeyə haqqı var. Axı

Dörd divar arası sıxırmış onu,
Sanki öz evidi bu yer, bu məkan.

Yer də çıl-çıraqdı, göy də çıl-çıraq,
Var olsun vətənin mərd oğulları.
Sevincdən sinəmə sığmayır könlüm,
Elə bil, mənimdir dünyanın varı.

Bu axşam pay düşdü taledən bizə,
Yenidən yaşadıq gənclik həyatı.
Bugünkü görüşün səbəbkarı var,
Var olsun şairi, eli-elatı.

Belədir, insan istəklərinə qovuşanda sanki həyatını təzədən yaşayır. İllərin ayrılığından sonra yaşa dolmuş, həyatın ağrı-acılarını həsrətdə keçirmiş sevgililər nəfəs-nəfəsə dayanan kimi, həyatın ecazkar sirlərindən güc alaraq gəncləşirlər. Bəli, əsərin lirik qəhrəmanı şair də çox böyük mənəvi iztirablardan sonra öz yurdu ilə qovuşduğu üçün sanki gəncliyə qayıdıb, cavanlaşıb. İndi onun varlığında yazacağı yeni əsərlərin mövzusu canlanmaqdadır. Şair bu görüşün özünü belə, ecazkar bir mənzərə kimi görür. Şair dostunun çıxışındakı hər sözün özünü bir inciyə, dürrə bərabər tutur. Biz burada müəllifin həm də gözəl söz aşiqliyinə heyranlığımızı bildirməkdən çəkinmirik:

Şairin ağzından dürr tökülürdü,
Heyranı olmuşduq, səs eləmirdik.
Başımız söhbətə elə qarışdı,
Axşam necə ötdü, hiss eləmədik.

Bu yerdə rahatlıq tapmayan şair,
Gah sola yol aldı, gah da ki sağa.
Alovlu, duyğusal şeirləriylə
Endirdi arana, qaldırdı dağa.

Kimsə doya bilmir xoş söhbətindən,
Adam darıxarmı o olan yerdə?
Yeni şeirləri könül oxşayır,
Ömür yaşayırıq söz-söhbətində.

Yır-yığış eləyib ayağa durduq,
Təşəkkür eylədik ulduza-aya.
Uşaqlar narahat olmasın deyə
Düşündük, qayıdaq mehmanxanaya.

Kimisə narahat etməyə dəyməz,
Çoxdan ötüşübdür gənclik çağımız.
Şair istəsə də, yeri deyildi
Yenidən o evə qayıtmağımız.

Səfərin özünəməxsus xüsusiyyətləri var. Dostlar səfərin dadını qədərincə görüb. Axşam olsa da, yeni məkan, yeni macəra axtarışındadırlar. Eşidiblər ki, Araz qırağında yaxşı bir Karvan oteli var. Həmin oteldə yeni qonaq evində dincəlməyi qərara alırlar. Beləliklə, yay axşamının duyğulu aydınlığında Araz qırağında ulduzları seyr etməyin zövqünü də bu səfərdən pay kimi almaq istəyirlər:

Söhbətin axırı uzun çəksə də,
Axır ki şairlə dil tapa bildik.
Şair küsməyini atdı bir yana,
Sonunda bir ortaq məxrəcə gəldik.

Mircəlal sözünü tamamlamışdı,
Əli Rza ərkyana yenidən coşdu:
-Qonağın hər evdə yeri olsa da,
Onun qayğıları daha da xoşdu.

Sözün də dəyəri ocaqdan gəlir,
Həmişə gur yansın odu-ocağı.
Arzusu çin olub şair qardaşın,
Xoş anlar yaşatdı bu axşam çağı.

Mircəlal söylədi deyəcəyini,
Şairin nədənsə üzü gülmədi.
Biləndə gedirik mehmanxanaya
O, bunu yenə də rəva bilmədi...

Bu səhər biz olan "Hotel"ə gəldi,
Deyəsən, deməyə var imiş sözü.
Şairin səs-küyü bizi oyatdı
Açılar-açılmaz səhərin gözü.

Azərbaycanın tarixi taelyində zəfər bayramından sonrakı mərhələ gələcək nəsillərə qızıl tariximizin səhifələri kimi bəxş olunub. 44 günlük zəfər müharibəsi, sonra antiterror əməliyyatı, daha sonra Zəngəzur dəhlizi uğrunda mübarizə... bunları necə unutmaq olar. Cəbrayıla qonaq gəlmiş söz-sənət adamları Araz qırağında məhz Zəngəzur yolunun üstündə gecələyiblər. İstər-istəməz buradakı söhbətlərin baş məğzi Vətənin uğurlarından qürrələnməkdir.

Mir Cəlalın, Arifin, İsmayılın, Saməddinin, Vilayətin, İslamın, Tormoz Hüseynin, Fəxrəddinin, Əkbərin... digərlərinin böyük söz məkanındakı xəyali görüşləri gözəl, poetik təsvirləri ilə unudulmur, yaddan çıxmır:

Üzündən-gözündən hiss elədik ki,
Bu gecə yatmayıb Əli Rza qağa.
Hər işi saf-çürük eyləyən şair
Gəlibdir bizləri yola salmağa.

Qonağı axşamlar salmazlar yola,
İstəyib bizləri yenidən görə.
Səhər yeməyini bir yerdə yeyib,
Təşəkkür elədik hər şeyə görə.

Dözdü hər bir işdə çətinliklərə,
Odur ki, söhbətdə, hər işdə arif.
"Can" deyid, hər kəsin könlünü aldı
Bizim "naşı şofer" - sürücü Arif.

Sözünü heç zaman deməyib boşa,
Yüz dəfə ölçsə də, bir dəfə biçir.
Vilayət dilləndi: "Unutmayın ki,
Bakıya gedən yol Şirvandan keçir".

Bu əsəri şair R.Musa 2025-ci ilin iyul ayının 7-də tamamlayıb. Hər bir əsər də canlı varlıqdır. Zaman keçdikcə daha yaxşı, daha əhatəli dərk olunur.

Rafiq Musa bu gözəl əsəri ərsəyə gətirmək üçün təkcə ilhamına güvənməyib, həm də böyük zəhmətinə güvənib. O, əsəri xüsusi bir zövqlə, həvəslə işləyib. Ona görə də çox dəyərli, oxunaqlı bir poetik əsəri - poemanı yaradıb.

"Od içindən keçən yol" od içindən keçməyin yanğısını ilhamlı poetik təsvirlərlə yazıya gətirib.

*SON*